Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 09 (1139) 02 mart 2023-cü il | Kredo.-S.1. | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# TARİXİN YAQUB MƏMMƏDOV OBRAZI

## “Dönməzlik yolu” kitabından parçalar

### YAQUB MÜƏLLİMLƏ SÖHBƏT

*Mən yalnız bircə tiran tanıyıram;*
*Vicdanın ruhumdakı səssiz səsini.*
**(İndira Qandi)**

İnsanın zinəti iradə, ağıl,
Mənəvi gözəllik tacıdır saflıq.
Min yerə yozulan yuxu bir nağıl,
Düz ölçü həqiqət, meyar - sərraflıq.

Əməlin-amalın vəhdəti varsa,
Alın yazısını gəzmə alında.
İnsanlar içində hörməti varsa,
Əsil bələdçidir açıq alın da.

Fikir daşıyıram arana, dağa,
Yaqub müəllimi dinlədikcə mən.
Köksümdə ürəyim dönür bir dağa
Sözün ağrısında inlədikcə mən.

Fikir süzgəcindən süzülüb gələn,
Misralar dumduru bulaq suyudur.
Bir ozan dilindən süzülüb gələn
Tarixi yaşadan dastan boyudur.

Bir hakim tanıdım mən ömrüm boyu,
Hər zaman mənimlə yanaşı durdu.
Onun vicdan adı sözümün soyu
Qəlbimdə sarsılmaz bir qala qurdu.

Böyük ideallar gül-çiçək açar,
Doğrunu zavaldan qoruya bilsək.
Haqqın, həqiqətin bəxtinə açar,
Tapılar, vicdanın üzünə gülsək.

İndira Qandinin qızıl sözləri
Ömür kitabımda yaddaş yazısı.
Bir zaman qəlbimin yanan közləri
Közərən ocağı bir daş yazısı.

Mən yalnız bir tiran tanıyıram ki,
Onun səssiz səsi vicdan adlanır.
Yalnız o kəsləri qınayıram ki,
Vicdan hökm etməmiş sözü atlanır.



### "ŞAİR DOSTUM"A

*Siyasət - ağıl və idrak, bəlkə də, incəsənət və mənəvi dəyərlərə istinad deməkdir. Amma siyasəti hiylə və kələk, riyakarlıq kimi qəbul edənlər də var. Ciddilər, ləyaqətlilər və sözün həqiqi mənasında, bütövlər heç də gözqamaşdırıcı işıq salmaq arzusunda deyillər. Onlar beyinlərə, zəkalara təsir etmək istəyərdilər. Əlbəttə, onların dediklərini, fikir və düşüncələrini qəbul etmək istəyənlər olsaydı... Ancaq vicdansızlar, böhtançılar da az deyil.*

Deyirsən şairəm, sözündən soruş,
İnsanın kədəri, sevinci nədir?
Özünə sual ver, özündən soruş,
“Sən kimsən” sözünün güvənci nədir.

Yaqub Məmmədovun həyat romanı
İnsanlıq yoluna düşən işıqdır.
Onun məntiqinin gücü, gümanı
Zülmətin bağrını deşən işıqdır.

Bir "şair dostuma" dediyim budur;
Sözün nəfəsinə haram qatmısan.
Gözlərin açılmaz, vicdanın kordur,
Qəflət yuxusunda hələ yatmısan.

Yazdığın yalanın xəcalətində
Fikirlər əridi, qələm utandı.
Sənin yalanların hansı çətində,
Hansı dar ayaqda səni tutandı?!

Yaqub Məmmədovun əqidə yolu
Doğrunun düz yolu, saf amalıdır.
Sənin yazdıqların bir çirkab dolu
Zibil qutusuna atılmalıdır.

Yalanın oduna közərən közdə,
Bağrına od düşən həqiqəti gör.
Böhtanla, qərəzlə yazdığın sözdə
Haqqa diş qıcayan min nifrəti gör.

Şair yalanıyla Dədə Füzuli
Sözdə müqəddəslik haqqı bitirdi.
Sənin yalanınsa sözün əzəli,
Əbədi haqqına ləkə gətirdi.

### XARRAT OĞLUNA SÖZÜM

*"Sözün acizliyindən kim şikayət etməmiş?"*
**(C.Bayron)**

*Sözün ovsununu bilməyib, sözü toxumağı bacarmayan sehr yarada bilməz. Bir dəfə atamla anamın mübahisəsini eşitdim: "Mən yalan danışıb orucumu, namazımı batil edə bilmərəm". Axı bilirdim ki, atam tərəkəmə olub. Oruc tutmur, namaz qılmır. Bəs bu, nə deməkdir? "Mənim haqqın tərəfində durmağım, haqqı nahaqqa verməməyim özü məndən ötrü Allah yoludur". Bəli, ata, haqqın tərəfində durmaq böyük yoldur. Axı bəzən ürəkdən haqq, həqiqət yolu bilib düşündüyüm cığırın son ucunda məkrli tələlər qurulmuş olur...*

İnsansan, alimsən - ancaq şəxsiyyət
Mənəvi varlığın uca qalası
Sözün qiymətidir məna, mahiyyət.
Üzüyə gözəllik - qaşı, cilası.

Səni müdrikliyin uca taxtına,
Vicdana söykənən ağıl gətirdi.
Nadan güvənərsə ancaq baxtına
Deyər ki, əfsanə nağıl gətirdi.

Haqqın ədalətin döyüşlərində,
Həyat məktəbində bişib bərkidin.
Sən halal zəhmətin alın tərində,
Ata ocağında elə bərk idin.

Oğluydu Xaqani Nəccar Əlinin,
Bir zaman sənətin xaqanı oldu.
Zəhmətdən yapışan ata əlinin
Işığı, zərrəsi qəlbinə doldu.

Yonulan taxtanın xarrat əlində
Gözəllik tapırdı əyrisi, düzü...
İncə naxışların zərifliyində
Bir insan ömrünün gecə-gündüzü.

Ömrün hər pilləsi bir dastan boyu,
Əzminlə aşmısan dağ gədiyini.
Danışıb yazmısan sən ömrün boyu,
Ata sənətindən öyrəndiyini.

Bir tamı zərrədən seçib, ayırmaq
Heç zaman kimsəyə gəlməsin asan.
Deyirəm taleyin işinə bir bax,
Atan taxta yondu, sən isə insan...

Böyük zəkalardan yaddaşda qalan,
Tarixə, zamana, çağa bənzəyir,
Bəzən dumanlarda görünməz olan
Böyük həqiqətlər dağa bənzəyir.

Atan taxda yonan bir dülgər idi,
Sən insan ömrünü cilalayırsan...
O, öz sənətində bir zərgər idi
Sən elmin zərgəri - seçib, ayırsan.

Hər sözün özü də işıqdı, nurdu,
Onu insanlığa səpib əkmisən.
Atan rəndə ilə taxta yonurdu
Sənsə fikirlərə rəndə çəkmisən.

***2011***

***Müəllifdən:*** *Tarixi yaddaşı özündə yaşadan abidələrin qorunması haqqında yazırıq. Bəzən abidələrə diqqət tələb edirik. Ancaq çox vaxt unuduruq ki, ən uca abidə canlı insanın özüdür. Yaqub Cavad oğlu Məmmədov tarixi-siyasi kataklizm zamanınacan özünü təsdiq etmiş elm adamı, ictimai-siyasi xadimdir. Onun həyatını xarakterizə edən ən qabarıq portret cizgisi səmimiyyətidir. Zaman keçdikcə tarixə qərəzsiz yanaşan analitiklər - təhlilçilər üçün onun hər bir sözü dövrün mahiyyətini anlamaq üçün açar gücündədir. Hər bir insanın dəyəri zamanına, dövrünə, müasirlərinə obyektiv münasibəti ilə görünür. Belə demək mümkünsə, hər kəs öz təsdiqini - mənəvi kimliyini öz münasibəti ilə cəmiyyətə göstərə bilir.*

*Yaqub Cavad oğlu Məmmədov tarixi şəcərədən gələn mənəvi keyfiyyət daşıyıcısıdır. Bu gün üçün artıq abidə insandır. Onun bilavasitə iştirakçısı olduğu tarixi qavramaq üçün sadəcə onu dinləmək, sözünü eşitmək çox vacibdir. Bizim kimliyimiz özümüzdən əvvəlkilərə, bizdən öndə olanlara münasibətimizlə görünür... Görünür, hələ uzaq gələcəkdə də belə olacaq.*

*Tarixin şahidlərinə hörmət, ehtiram heç nə ilə əvəz olunmayan borcumuzdur.*

***Əli Rza XƏLƏFLİ***